# ABŞ İlham Əliyevin qlobal təşəbbüslərini daim təqdir edir

**Noyabrın 28-də ABŞ Dövlət Departamentinin Qafqaz danışıqları üzrə baş müşaviri Filip Rikeri qəbul edən Prezident İlham Əliyev dövlət katibi Antoni Blinkenin Ermənistanla Azərbaycan arasında münasibətlərin normallaşdırılması prosesini daim diqqətdə saxlamasını yüksək qiymətləndirib.**



Qəbulda Ermənistanla Azərbaycan arasında münasibətlərin normallaşdırılması, sülh müqaviləsi üzrə danışıqların aparılması ilə bağlı xarici işlər nazirləri səviyyəsində Vaşinqtonda keçirilmiş görüş ətrafında fikir mübadiləsi aparılıb.

Xatırladaq ki, noyabrın 16-da Antoni Blinkenin İlham Əliyevə telefon zəngi zamanı dövlət katibi Ermənistanla Azərbaycan arasında münasibətlərin normallaşdırılması və sülh müqaviləsinin imzalanması üçün tarixi imkanın yarandığını deyərək ABŞ-nin bu istiqamətdə səylərini davam etdirəcəyini bildirmişdi. Dövlət katibi həmçinin Vaşinqtonda noyabrın 7-də Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin sülh müqaviləsi üzrə növbəti danışıqlarının keçirildiyini və ABŞ-nin tərəflər arasında münasibətlərin normallaşdırılması prosesinə töhfə vermək əzmində olduğunu bir daha vurğulamışdı.

Prezident İlham Əliyev isə qeyd etmişdi ki, bu istiqamətdə göstərilən səylərə və aparılan danışıqlara baxmayaraq, Ermənistan rəhbərliyi tərəfindən son günlərdə səsləndirilən ziddiyyətli bəyanatlar iki ölkə arasında münasibətlərin normallaşmasına və sülh gündəliyinin irəli aparılmasına mənfi təsir göstərir.

Ən mühüm məqam isə odur ki, ABŞ İkinci Qarabağ müharibəsindən sonra regionda yaranmış yeni reallıq, sülhün və təhlükəsizliyin təminatı və Ermənistanla sülh sazişinin bağlanması prosesində İlham Əliyevin atdığı addımları, irəli sürdüyü qlobal təşəbbüsləri tam dəstəkləyir.

Bunu ABŞ Prezidenti Co Baydenin İlham Əliyevə 28 May Müstəqillik Günü münasibətilə ünvanladığı məktubdakı fikirlər də təsdiq edir: "İndi Cənubi Qafqazda davamlı sülhə nail olmaq üçün mühüm imkana bəslənən ümid zamanıdır. Amerika Birləşmiş Ştatları bütün Qafqaz və Trans-Xəzər regionunun çiçəklənməsinə imkan verəcək Azərbaycan ilə Ermənistan arasında diplomatik təmasların intensivləşdirilməsinə və Azərbaycanın iqtisadi, nəqliyyat və insanlararası əlaqələrinin qurulmasına kömək etməyə hazırdır".

Göründüyü kimi, dünyanın super dövləti olaraq ABŞ da İlham Əliyevin postmüharibə dövründə yürütdüyü siyasətə öz dəstəyini nümayiş etdirir. Qalib komandan kimi bölgədə sülhün bərqərar olunmasını, yeni nəqliyyat-tranzit qovşağının və həmçinin yeni əməkdaşlıq platformalarının yaradılmasının təşəbbüskarı olan İlham Əliyevin təklifləri Avropa İttifaqı, BMT ilə yanaşı, ABŞ tərəfindən də təqdir edilir.

ABŞ-lə münasibətlərin yüksək səviyyəyə qaldırılması işində əlbəttə ki, ölkəmizin demokratik dünyaya inteqrasiyası istiqamətində atdığı davamlı addımlar mühüm rol oynayıb. Digər tərəfdən ölkəmizin Avropanın enerji təchizatı sahəsində əhəmiyyətli rolu da Azərbaycanla ABŞ arasındakı münasibətləri dərinləşdirən faktorlardandır.

*R. BAXŞƏLİYEV,*
*"Azərbaycan"*

Azərbaycan.- 2022.- 29 noyabr.- S.4.